# 06 iyun 2024-cü il tarixində Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında Qanun Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuşdur.

Qanunda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar bəzi əməliyyatlar üzrə **2024-cü il martın 1-dən etibarən 9 ay müddətinə** aşağıda qeyd edilən azadolmaların tətbiqi nəzərdə tutulmuşdur:

## Fiziki şəxsin gəlir vergisi üzrə:

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədi əsasında malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlər gəlir vergisindən azad olunmuşdur

## Hüquqi şəxsin mənfəət vergisi üzrə:

Qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən **royalti gəlirləri mənfəət vergisindən azad olunmuşdur;**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədi əsasında qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən **əldə edilən gəlirlər mənfəət vergisindən azad olunmuşdur.**

## Əlavə Dəyər Vergisi üzrə:

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bağlanılmış müqavilə əsasında qeyri-rezident **şəxslər tərəfindən** işlərin

görülməsi və xidmətlərin göstərilməsi, habelə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədi əsasında malların idxalı **Əlavə Dəyər Vergisindən azad olunmuşdur.**